# Tovuz döyüşləri – Qarabağ zəfərinə gedən yol



***Ermənistan 30 il ərzində torpaqlarımızı işğal altında saxlamaqla bərabər, Azərbaycana qarşı təxribatlarından da əl çəkmir, daim işğalçılıq siyasəti yürüdür, "Dağlıq Qarabağı" müstəqil dövlət adlandırır, yeni xəritələr çap edərək, bütün ətraf rayonlarımızı "Dağlıq Qarabağ" adlandırırdı. Eyni zamanda, şəhər və kəndlərimizin adlarını dəyişdirir və Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi.***

İkinci Qarabağ savaşı ərəfəsində işğalçı ölkənin Tonoyan soyadlı müdafiə naziri Ermənistanın yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşdığını bəyan etmişdi. Bu, azğınlığın ən yüksək həddindən xəbər verirdi. O həddindən ki, işğalçı Azərbaycanın dövlət sərhədlərini pozmaqdan belə çəkinmir, bununla beynəlxalq hüququn norma və prinsiplərinə nümayişkaranə hörmətsizlik göstərir, regiondakı gərginliyin saxlanılmasına bilərəkdən şərait yaradıldı.

Düşmən anlamırdı ki, bərpa edilən dövlət sərhədləri artıq münaqişə zonası deyil. Bu, Azərbaycanın tam hüquqlu suveren ərazilərini müəyyənləşdirən beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığına təhlükə yaradan istənilən təxribat isə Azərbaycanın ərazi bütövlüyünə təcavüz kimi qiymətləndirilir. Deməli, belə halda Azərbaycan öz torpaqlarına təhdid təşkil edən istənilən legitim hərbi hədəflərin yerləşdiyi ərazidən asılı olmayaraq məhvini gerçəkləşdirmək hüququna malikdir.

Xatırladaq ki, ordumuz öz gücqüdrətini 2016-cı ilin aprelində də sübut etmişdi. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Silahlı Qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etmişdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçmişdi.

Silahlı Qüvvələrimiz daha bir uğuru Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

Ermənistan bütün bu dərslərdən nəticə çıxarmadı. Vətən müharibəsindən əvvəl, iyul ayının 12–16-da Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində daha bir məqsədyönlü təcavüzkar hərəkəti törətdi. Bu silahlı hücum təsadüfi bir hərbi insident olmayıb, Ermənistanın Azərbaycan Respublikasına qarşı qanunsuz güc tətbiqinin növbəti açıq təzahürü kimi diqqət çəkdi və ölkəmizin yeni ərazilərini zəbt etmək məqsədi daşıdı.

Döyüşlərin birinci günündə Ermənistan ordusu Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində və istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutaraq, hücuma keçməyə cəhd göstərdi. Lakin görülən adekvat tədbirlər nəticəsində düşmənə ağır zərbə endirildi və işğalçı itki verərək geri oturduldu. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini ələ keçirməsi cəhdlərinin qarşısı qətiyyətlə alındı və hər hansı ərazi itkisinə yol verilmədi. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altında oldu. Döyüşlər zamanı Ermənistan ordusunun şəxsi heyəti isə çoxsaylı itki verdi.

İyulun 13-nə keçən gecə Tovuz istiqamətində vəziyyət yenidən gərginləşdi. Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə ordumuzun mövqelərini yenidən atəşə tutdu. Düşmən Tovuz rayonunun Ağdam kəndini minaatanlarla atəş altında saxladı. İşğalçının bu təxribatına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görüldü. Artilleriya, minaatan və tanklarla aparılan gecə döyüşlərində Azərbaycan Ordusunun bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Bölmələrimiz tərəfindən düşmənə sarsıdıcı zərbələr endirildi. Nəticədə düşmən xeyli itki verdi.

Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Elçin Mustafazadə, Nazim İsmayılov, Xəyyam Daşdəmirov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov şəhid oldular. Bu, Azərbaycan Ordusunun general və digər yüksək rütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttidə döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetməsini bir daha bütün dünyaya nümayiş etdirdi.

Beləliklə, Tovuz rayonu istiqamətində baş verən son şiddətli döyüşlər ordumuzun həm canlı qüvvəsinin, həm də hərbi texnikasının gücünü bir daha təsdiqlədi. Bədxah düşmənin artilleriya atəşi silahlı qüvvələrimiz tərəfindən layiqincə cavablandırıldı. Azərbaycan dövlətinin sürətli inkişafını gözü götürməyən namərd düşmən fitnə-fəsada, hiyləyə əl atsalar da, onların bu cəhdləri hər zaman olduğu kimi, puça çıxdı.

Tovuz dövüşlərində şəhid olan general Polad Həşimovun nəşinin Bakıya gətirildiyi zaman paytaxtımızda xalq ayağa qalxdı, böyük izdiham yaşandı. Gecə saatlarında minlərlə Bakı sakini Ermənistana müharibə tələbi ilə şəhər küçələrinə axışdı. "Qarabağa azadlıq!" şüarları səsləndirən, əsasən gənclərdən ibarət olan böyük bir izdiham Şəhidlər xiyabanına yürüş etdi. Gənclər Azərbaycan Ordusunun və Ali Baş Komandanın yanında olduqlarını, onu dəstəklədiklərini bildirərək, şəhidlərin qisasının alınması, torpaqlarımızın azadlığı uğrunda savaş istədilər.

Ali Baş Komandan İlham Əliyevin çağırışına səs verən yüz minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbələrinə müraciət edərək döyüşlərdə könüllü iştirak etmək arzularını bildirdilər. Beləliklə də, Tovuz hadisələri xalq və Prezident, xalq və ordu birliyini daha da möhkəmləndirdi.

Tovuz döyüşləri Azərbaycan tarixinin ən şanlı səhifələrindən olan Vətən savaşına gedən yolda ən mühüm mərhələlərdən biridir. Bu döyüşlərdən təxminən iki ay yarım sonra düşmənin növbəti təxribatının qarşısını almaq üçün genişmiqyaslı əks-həmlə əməliyyatına başlayan müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı yağıdan təmizlədi. Düşmənə sarsıdıcı zərbə vuran qəhrəman əsgər və zabitlərimiz şəhidlərimizin qanını yerdə qoymadı, xalqımıza sonsuz qürur və sevinc hissi yaşatdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun kompleks inkişafına və modernləşdirilməsinə daim xüsusi önəm verilməsi nəticəsi idi ki, İkinci Qarabağ müharibəsində



silahlı qüvvələrimiz düşmənin uzun illər ərzində qurduğu, keçilməz sayılan müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini məhv etdi. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikasını sıradan çıxartdı.

Təəssüf ki, əvvəllər olduğu kimi, Vətən müharibəsindəki parlaq qələbəmizdən sonra da düşmən ölkədə revanşist qüvvə ritorikadan əl çəkilmir. Nüfuzlu dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən isə Ermənistanı bu qeyri-insani hərəkətlərinə, cinayətkarlıq, işğalçılıq siyasətinə qarşı ciddi ölçü götürülmür, müvafiq tədbirlər reallaşdırılmı.

Vətən müharibəsinə kimi ortada olan həqiqət isə o idi ki, istər Paşinyan hakimiyyətinin, istərsə də ondan əvvəlki rejimin avantürist siyasəti vurğuladığımız kimi, beynəlxalq birlik tərəfindən daim susqunluqla qarşılanırdı. Ermənistanın işğalçılığına laqeyd, biganə münasibət bəslənilirdi. Düşmən dövlətin ərazilərimizi uzun illər işğal altında saxlamaqda davam etməsi, beləliklə, beynəlxalq hüququ kobud şəkildə pozması, əgər belə demək mümkündürsə, nüfuzlu ölkələri, benəlxalq qurumları narahat etmirdi. Yoxsa, BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsi illər uzunu kağız üzərində qalmazdı, əməli addımlar atmaq, işğalçıya yerini göstərmək əvəzinə, işğalçı ilə bərabər Azərbaycana da ünvanlanan neytral xarakterli, sülhə çağıran və iki tərəf arasında tarazlığı saxlamağa yönələn şablon bəyanatlar səsləndirilməzdi.

Prezident İlham Əliyev çıxışlarının birində bu məqama da toxunaraq, bildirib ki, Ermənistan ərazisinin bir hissəsinin qədim Azərbaycan torpağı olması fikri Ermənistanda siyasi manipulyasiya məqsədlərində istifadə edilir: "Yəni, mənim ərazi iddialarım var. Xeyr, bu, belə deyil və mən bunu ictimai şəkildə bəyan edirəm. Lakin, eyni zamanda, biz tarixi bilməliyik. Mən gənc nəsillə bağlı dediklərinizlə də razılaşıram ki, bəzən gənc nəsil tarixi bilmir. Hətta bizim nəslə belə saxta tarix öyrədilib. Mən məktəbdə təhsil alarkən bizə qəhrəman kimi təqdim edilənlər, əslində, cinayətkarlar idi. Məsələn, Azərbaycan xalqını qətlə yetirən 26 Bakı komissarı. Bizi öyrədirdilər ki, onlar qəhrəman idilər və vətənimizi xilas etmişdilər. Əslində isə Şaumyan və digərləri cinayətkar idilər. Onlar burada qırğınlar törədib, azərbaycanlıları qətlə yetiriblər. Belə nümunələr çoxdur...".

Dövlətimizin başçısı bununla da indiki nəslin reallıqları bilməsini– Zəngəzurun qədim Azərbaycan torpağı olmasını, sonradan Ermənistana verildiyini, bu gün Sevan adlandırılan Göyçə gölünün ətrafında bir vaxtlar azərbaycanlıların yaşadıqlarını, İrəvanın da qədim Azərbaycan şəhəri olduğunu, hazırda isə onun tarixi hissəsininin məhv edildiyini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: "Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən deməmişəm ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik... Biz tariximizi yadda saxlayacağıq, ancaq Ermənistan da daxil olmaqla, heç bir ölkəyə qarşı ərazi iddiamız yoxdur".

Prezident İlham Əliyev dəfələrlə müxtəlif yüksək səviyyəli tədbirlərdə Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tarixi faktların dünyaya çatdırılmasının zəruriliyini bildirərək, tarixi ədalətin tərəfimizdə olduğunu, beynəlxalq hüququn bizim mövqeyimizi dəstəklədiyini vurğulayıb. Azərbaycanın arqumentlərə qarşı Ermənistan tərəfindən isə heç bir ciddi arqument qoya bilmədiyini, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiyaya əsaslandığını xatırladıb.

İkinci Qarabağ müharibəsindən sonra regionda yaranan yeni reallıqlar əsasında dövlətimizin başçısı tərəfindən hazırlanan inkişaf strategiyası bu gün uğurla həyata keçirilir. Azərbaycan yalnız öz gücü hesabına işğaldan azad edilən torpaqlarda reallaşdırdığı misli görünməyən tikinti-quruculuq, yenidənqurma layihələri ilə Qarabağ və Şərqi Zəngəzur gülüstana çevrilir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***